

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 127 (23.289)

*12 iyul 2019-cu il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında televiziya işində səmərəli fəaliyyətlərinə görə:

Əliyev Rauf Cəlil oğlu

Hüseynov Nail Ağəli oğlu

Qafarov Toğrul Hüseyn oğlu

Mahmudov Vüsal Yusif oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 11 iyul 2019-cu il*

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



*Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində cari ilin birinci yarısının yekunlarına dair kollegiya iclasını Ekologiya və Təbii Sərvətlər naziri Mayis Əliyev açaraq məruzə ilə çıxış edib.*

Bildirilib ki, cari ilin yaz əkini mövsümündə muxtar respublika ərazisində nazirlik, idarə və müəssisələr, rayon, şəhər icra hakimiyyətləri və vətəndaşlar tərəfindən, ümumilikdə, 317,2 hektar sahədə meşəsalma, meşəbərpa işləri aparılıb, yeni meyvə bağları salınıb. Aparılan əkin işlərində, ümumilikdə, 144 min meyvə, meşə, həmişəyaşıl, üzüm tingi, bəzək və gül kolları əkilib. Muxtar respublika ərazisində aparılan yaşıllaşdırma tədbirlərində meşə və meyvə tinglərinə, həmişəyaşıl ağaclara olan tələbat nazirlik tərəfindən təmin edilib.

Qeyd olunub ki, torpaqiqlim şəraitinə uyğunlaşması, mürəkkəb relyefli ərazilərdə səmərəliliyi əsas götürülərək müəyyən sahələrdə 132 hektarda toxumla əkin aparılıb, 1200 kiloqram həmərsin, yemişan, badamça, iydə toxumları əkilib.

Diqqətə çatdırılıb ki, muxtar respublika ərazisində yaz mövsümündə 8,6 hektarı üzüm olmaqla, 105 hektar sahədə meyvə bağı, yaşıllıq zolaqları salınıb. "Ailə təsərrüfatları ili" elan edilmiş bu ilin birinci yarısında meyvə bağlarının əkilməsi ilə məşğul olan ailə təsərrüfatlarının yaradılmasına köməklik göstərilib. Əlverişli şəraitin və göstərilən dövlət qayğısının nəticəsidir ki, yeni yaradılan 13 ailə təsərrüfatı tərəfindən, ümumilikdə, 19,8 hektar sahədə meyvə və üzüm bağları salınıb.

Bildirilib ki, muxtar respublika ərazisində aparılan yaşıllaşdırma tədbirlərində meşə və meyvə tinglərinə, həmişəyaşıl ağaclara olan tələbatın davamlı təmin edilməsi məqsədilə 2,7 hektardan çox ərazidə toxum səpini və qələm köklündirmə işləri icra olunub, 35 min üzüm, 39 min iydə qələmləri əkilib. Mövsüm ərzində bərpa işlərinin aparılması məqsədilə 5 mindən çox dibçəkdə ting yetişdirilib. Toxum tədarükü məqsədilə 15 kiloqramdan çox tut, 500 kiloqram ərik toxumu yığılıb və aqrotexniki qaydada anbarlaşdırılıb.

Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu ilə birgə hazırlanmış tədbirlər planı çərçivəsində "Ekoloji könüllülər" layihəsinə start verilib, gənclərin təbiət ərazilərinə ekskursiyaları təşkil edilib. Həmçinin startapların hazırlanması məqsədilə nazirlikdə ekspert qrupu yaradılıb, Naxçıvan Dövlət Universitetində aid ixtisas tələbələri ilə görüşlər keçirilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

*Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində keçirilən kollegiya iclasını xidmətin rəisi Vəli Novruzov açıb.*



Bildirilib ki, 2019-cu ilin birinci yarısında süni mayalanma tədbirləri davam etdirilib, ümumilikdə, 6750 düyə və camış süni yolla mayalandırılıb və 5095 baş sağlam bala alınıb.

Vurğulanıb ki, süni mayalanma tədbirlərinin genişləndirilməsi, mövcud mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə Babək rayonu ərazisində Süni Mayalanma Mərkəzinin tikinti işləri davam etdirilir. Babək Rayon Baytarlıq İdarəsi üçün tikilən yeni inzibati binada isə son tamamlanma işləri aparılır. Şərur rayonunun Kərimbəyli kəndində yeni baytarlıq məntəqəsi və ət satışı mağazası inşa olunub.

Diqqətə çatdırılıb ki, cari ilin birinci yarısında 2956 baş cins buzova görə vətəndaşlara, ümumilikdə, 295 min 600 manat məbləğində subsidiya verilməsi təmin olunub. Ət kəsimi məntəqələrində, ümumilikdə, 2883 baş iribuynuzlu, 4876 baş xırdabuynuzlu heyvan kəsilib. Kəsilən heyvanlar üçün aparılan orqanoleptik və laborator müayinələrdən 7449,4 manat vəsait toplanaraq dövlət büdcəsinə köçürülüb. Xidmətin rəisi bildirib ki, muxtar respublikanın şəhər və rayonlarında mal-qara arasında infeksion xəstəliklərə qarşı peyvəndləmə tədbirləri aparılması nəticəsində epizootik sabitlik qorunmaqdadır.

Diqqətə çatdırılıb ki, muxtar respublikada kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyətə malik olan arıçılıq bu il də dövlətimizin xüsusi diqqət mərkəzində saxlanılır. Belə ki, 3775 arıçı sahibkara məxsus 74 min 244 arı ailəsi qeydiyyata alınaraq onların identikləşdirilməsi təmin olunub və 742 min 440 manat subsidiya ödənilib.

Bildirilib ki, Dövlət Baytarlıq Xidmətinə hamiliyə verilən tələbələrin təcrübə keçmələri təmin edilib.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının yarım ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunan iclasını giriş sözü ilə şuranın sədri Sucaxan Novruzov açaraq bildirib ki, 2019-cu ilin birinci yarısında muxtar respublikada 1173 yeni iş yeri açılıb. Bunun da 99 faizi daimi iş yerləridir. Bu dövr ərzində şuranın sıraları möhkəmlənib, yeni istifadəyə verilən müəssisələrdə ilk həmkarlar təşkilatları yaradılıb, insanlar üçün sağlam, layiqli iş şəraiti qurulub. İlk həmkarlar ittifaqları təşkilatlarının sayı ötən il 1517 idisə, bu gün həmin rəqəm 1587-yə çatıb. İttifaq üzvlərinin sayı isə 73 min 600 nəfərdən 74 min nəfərə yüksəlib.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası İcraiyyə Komitəsinin 2018-ci il 11 aprel tarixli qərarı ilə şuranın tabeliyində olan ilk təşkilatlarda "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" devizi ilə muxtar respublika baxış müsabiqəsi keçirilib. 50-dən çox təşkilatın iştirak etdiyi müsabiqənin qalibi isə Sahibkarlıq İşçiləri Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Komitəsinin tabeliyində olan "Ləzzət Biskvit və Şokolad Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyəti olub. Müsabiqənin şərtlərinə əsasən cəmiyyətin iş təcrübəsi foto və videogörüntüləri ilə birlikdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası İcraiyyə Komitəsinin keçirdiyi respublika baxış müsabiqəsinə göndərilib. Müsabiqəyə cari ilin aprel ayının əvvəllərində yekun vurulub, "Ləzzət Biskvit və Şokolad Fabriki" MMC-nin iş təcrübəsi birinci yerə layiq görülüb, qiymətli hədiyyə və diplomla mükafatlandırılıb.

Sonda çıxışlar dinlənilib.

## Kollegiya iclasları keçirilib

*Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində cari ilin birinci yarısının yekunlarına həsr olunmuş kollegiya iclasını komitə sədri Hicran Rüstəmov açıb.*



Bildirilib ki, 2019-cu ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin xətti ilə 64 milyon 357 min manatlıq inşaat işləri yerinə yetirilib. Bunun 60 milyon 751 min manatını və ya 94,4 faizini yalnız tikinti-quraşdırma işləri təşkil edib. Təhsil sahəsində həyata keçirilmiş quruculuq tədbirlərinə uyğun olaraq cari ilin ilk yarım ilində Şərur rayonunun Kərimbəyli kəndində 270, Ordubad rayonunun Dəstə kəndində 900 şagird yerlik tam orta məktəb binalarının tikintisi, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi üçün tədris binasının yenidən qurulması başa çatdırılaraq istifadəyə verilib, Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi, 1148 şagird yerlik 5 nömrəli tam orta məktəb, Şərur, Babək və Şahbuz rayonlarının bəzi kəndlərində tam orta məktəb binalarının və Ordubad rayonunun Vənənd kəndində musiqi məktəbinin, Şərur rayonunun Muğanlı kəndində, Muğancıq Mehrab kəndində, Ordubad rayonunun Vənənd kəndində tam orta məktəb binalarının tikintisi və yenidən qurulması işləri davam etdirilir. Bundan əlavə, bəhs olunan dövrdə Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində 2 nömrəli körpələr evi-uşaq bağçası üçün müasir bina tikilərək istifadəyə verilib, Şərur rayonunun Mərkəzi Xəstəxanasının əsaslı təmiri və rayon Uşaq Xəstəxanasının yenidən qurulması, Şərur rayonunun Kərimbəyli və Ordubad rayonunun Dəstə kəndlərində həkim ambulatoriyası binalarının tikintisi başa çatdırılıb.

Mədəniyyət sahəsində görülmüş işlərə toxunan komitə sədri qeyd edib ki, cari ilin birinci yarısında Şahbuz Rayon Mədəniyyət Sarayının tikintisi başa çatdırılaraq istifadəyə verilib, Naxçıvan şəhərində və Ordubad rayonunun Dırnıs kəndində məscidin, Şərur Rayon Mədəniyyət Sarayının tikintisi, Naxçıvan şəhərində Cəmşid Naxçıvanskinin ev-muzeyinin, Şərur şəhərində Təqaüdçülər Klubunun yenidən qurulması, Kəngərli rayonunun Şahtaxtı kəndində hamam binasının bərpası davam etdirilir.

Bildirilib ki, cari ildə Şərur rayonunun Kərimbəyli, Ordubad rayonunun Dəstə kəndlərində kənd mərkəzləri istifadəyə verilib, Şərur rayonunun Qışlaqabbas və Xələc kəndlərində kənd mərkəzlərinin yenidən qurulması, Alışar, Yeni Havuş, Muğancıq Mehrab, Muğanlı, Məmmədsabir, Babək rayonunun Kültəpə, Gülşənabad, Ordubad rayonunun Vənənd, Şahbuz rayonunun Türkeş kəndlərində isə kənd mərkəzlərinin tikintisi davam etdirilir. Bəhs edilən dövrdə Şərur rayonunun Kərimbəyli, Ordubad rayonunun Dəstə kəndlərində müasir xidmət mərkəzləri istifadəyə verilib. Şərur, Şahbuz rayonlarının bir sıra kəndlərində isə xidmət mərkəzlərinin tikintisi davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov muxtar respublikanın hərbi və hüquq-mühafizə orqanlarını, yol-nəqliyyat və enerji təsərrüfatlarını əhatə edən quruculuq tədbirlərindən də danışıb, işdə yol verilmiş nöqsanların aradan qaldırılması üçün tapşırıqlar verib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda keçirilən kollegiya iclasında fondun sədri Əli Quliyev çıxış edərək bildirib ki, muxtar respublika ərazisində əmək pensiyalarının düzgün təyinatı və ödənişinin aparılması, eləcə də fərdi uçot sisteminin qurulması istiqamətində 2019-cu ilin 6 ayı ərzində bir sıra işlər görülüb.*

Vurğulanıb ki, hesabat dövründə müvafiq mərkəzi icra hakimiyyəti orqanı tərəfindən məcburi dövlət sosial sığorta haqlarının toplanılması üzrə fondun xəzinə hesabına 39 milyon 16 min 200 manat vəsait daxil olub. Bu isə proqnoz üzrə nəzərdə tutulmuş 26 milyon 950 min manat vəsaitdən 12 milyon 66 min 200 manat çoxdur. Məcburi dövlət sosial sığorta haqlarının 27 milyon 65 min 470 manatı büdcə təşkilatlarının, 11 milyon 950 min 730 manatı isə qeyri-büdcə təşkilatlarının hesabına olub. Ümumilikdə isə pensiya və müavinətlərin ödənişinə ayrılan vəsaitin 53,9 faizi məcburi dövlət sosial sığortahaqqı şəklində muxtar respublikada yığılıb.

Ümumiyyətlə, 2019-cu ilin 6 ayı ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu büdcəsinin xərcləri 73 milyon 427 min 537 manat icra olunub. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 milyon 285 min 991 manat çoxdur. Hesabat dövründə pensiya və müavinətlərin maliyyələşdirilməsinə 72 milyon 289 min 149 manat vəsait yönəldilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3 milyon 328 min 800 manat çoxdur.

Vurğulanıb ki, 2019-cu ilin 6 ayı ərzində fondun yerli orqanları tərəfindən 582 nəfərə yaşa, 91 nəfərə əlilliyə, 217 nəfərə isə ailə başçısını itirməyə görə, ümumilikdə, 890 nəfərə əmək pensiyası təyin edilib.

Əvvəlki dövrlərdə olduğu kimi, 2019-cu ilin 6 ayı ərzində də əmək pensiyalarının plastik bankomat kartları ilə ödənilməsi üçün müvafiq işlər davam etdirilib. Görülmüş tədbirlərin davamı olaraq cari ilin 6 ayı ərzində muxtar respublika üzrə kənd yerlərində yaşayan daha 120 əmək pensiyaçısının istəkləri nəzərə alınmaqla, onların pensiyaları poçt bölmələri vasitəsilə ödənilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

*Müasirləşən bölgələrimiz*

# Düşmənə gözdağı olan Heydərabadda quruculuğun yeni səhifələri



Sərhəd bölgəsi Sədərək rayonu ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1990-cı il avqust ayının 28-də Sədərək kəndinin bazasında yaradılıb. Bununla bağlı görkəmli dövlət başçısı Heydər Əliyev 2002-ci il avqust ayının 14-də Sədərək rayonunun sakinləri ilə görüşündə deyib: ***"Sədərək həmişə bizim, Azərbaycanın ən kənar yerində, sərhəddə yerləşərək Azərbaycan torpaqlarını qorumuş, saxlamış və mərdlik nümunələri göstərmişdir. Mən indi qəsəbəni bu cür görəndə həddindən artıq sevinirəm. Çünki sizin, yəqin ki, xatirinizdədir, vaxtilə, 1977-ci illərdə mən Azərbaycanın başçısı olduğum zaman kənddən aralı bu qəsəbənin salınması haqqında qərar verdim. Nə üçün***



***kənddən aralı? Ona görə ki, o vaxtlar ermənilər yavaş-yavaş bu torpaqlara iddia edir, bu bizimdir, o bizimdir deyirdilər. Mənim yadımdadır, burada bir Həsənqulu bağı vardı... Guya ki, o bağ onlarındır. Sonra mən 1990-cı ildə buraya gələndə bu məsələlərlə məşğul olmuşam. O vaxt mən bunları hiss edirdim. Ona görə mən belə qərara gəldim ki, burada Azərbaycana Naxçıvan tərəfdən giriş yerində müasirtipli evlər tikək ki, Ermənistanın ərazisindən buraya keçənlər, – yadınızdadırsa, o vaxt gediş-gəliş çox idi, turistlər də gedib-gəlirdi, sovet vaxtı başqaları da gedib-gəlirdi, – onlar görsünlər ki, Azərbaycan torpağında indi yaşayış necədir. Ona görə mən burada o vaxt bu qəsəbəni salmaq barədə göstəriş verdim".***

Ulu öndərin quruculuq siyasətini uğurla davam etdirən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Sədərək rayonunun sosial-iqtisadi inkişafı haqqında" 2000-ci il 15 mart tarixli Sərəncamına əsasən bu istiqamətdə böyükhəcmli layihələr reallaşdırılıb, rayon özünün inkişaf və tərəqqi yoluna qədəm qoyub. Yeri gəlmişkən onu da vurğulayaq ki, ölkə Prezidenti cənab İlham Əliyev 2010-cu ilin oktyabr ayında muxtar respublikaya səfəri zamanı Sədərək rayonunda da olub. Bir neçə obyektin, o cümlədən yenidən qurulmuş Heydərabad qəsəbəsinin açılışında iştirak edib, ikimərtəbəli 16 fərdi yaşayış binası da həmin gün istifadəyə verilib. Dövlət başçısı qəsəbə sakinlərini təbrik edərək deyib: ***"...Gözəl evlər, binalar tikilib. Qəsəbə yeni dövrə qədəm qoyur. Bütün işlər ən müasir səviyyədə görülübdür. Çox şadam ki, respublika rəhbərliyi bütün bu işləri qısa müddət ərzində çox böyük keyfiyyətlə gördü. Bu, doğrudan da, böyük hadisədir. Heydərabad qəsəbəsinin Azərbaycan tarixində çox mühüm yeri vardır".***

Bu, doğrudan da, belədir. Naxçıvanın coğrafi mövqeyi onun tarixi taleyinə bir çox yaşayış məntəqələrində erməni adlı mənfur düşmənlə qonşuluq qisməti yazıb. Yüz illər boyu özlərinin çirkin əməllərini gah gizli, gah da aşkarda həyata keçirən daşnakların 1988-ci ildə yenidən üzə çıxan əsassız torpaq iddiaları, bu iddiaların yaratdığı məlum hadisələr sərhəd yaşayış məntəqələri sakinlərinin sərhədçi ömrü yaşamaları ilə nəticələndi. Ata-baba əmanəti olan torpaqlarımızın qorunması, düşmən tapdağına çevrilməməsi üçün bütün Azərbaycan ayağa qalxdı, o ağır illərdə belə, yurd yerlərimiz qəhrəmanlıqla qorundu, "Torpaq – uğrunda ölən varsa, Vətəndir!", – deyib səngərlərə atılaraq "Təki, Vətən sağ olsun!" amalı ilə ölümün gözünə dik baxdı eloğullarımız. Bu mücadilədə sağlamlığını itirən, öz ev-eşiyinə qazi kimi qayıdanlar da az olmadı. Yüzlərlə igidimiz isə şəhidlik zirvəsinə ucaldı.

Onların ruhu qarşısında baş əyən naxçıvanlılar bu gün muxtar respublikada bərqərar edilmiş ictimai-siyasi sabitlik, əmin-amanlıq, yenidənqurma prosesləri fonunda həyata keçirilən tədbirləri ürəkdən dəstəkləyir, bu tədbirlərdə fəallıq göstərirlər. Bunun ifadəsidir ki, doğma muxtar diyarımız, onun bütün bölgələri müasirlik donundadır. Ulu öndərimizin adını daşıyan qəsəbənin bu sırada öz yeri var. İki mindən artıq sakinin yaşadığı, ərazisi 8,4 kvadratkilometr olan qəsəbədə son illərdə də davam etdirilən quruculuq işləri rayon mərkəzini xeyli gözəlləşdirib, düşmənə gözdağına çevirib. Burada qəsəbə tam orta məktəbi, 3 məktəbdənkənar müəssisə, həkim ambulatoriyası, uşaq bağçası, şahmat məktəbi, seysmoloji stansiya, Tarix Diyarşünaslıq Muzeyi, 23 dövlət müəssisəsi fəaliyyət göstərir. Ümumilikdə isə qəsəbə ərazisində 110 ictimai yaşayış və inzibati bina öz müasir görkəmi ilə buraya gələnlərdə yüksək təəssürat yaradır. Binaların hər biri gülkarlıqlarla əhatə olunub. Gülkarlıqlara daimi su xətləri çəkilib. Müasir işıqlandırma sisteminin qurulması qəsəbəni, sözün həqiqi mənasında, işıqlı bir yurd yerinə çevirib. Bu, gecə vaxtlarında qəsəbənin daha gözəl, daha cazibədar görünməsinə imkan verib. Obrazlı şəkildə desək, bu işığın şölələri hər bir qəsəbə sakininin yolunu işıqlandırmaqdadır.

İsti yay günlərinin birində yenə də qəsəbədə qaynar həyat gördüm. Bu da səbəbsiz deyildi. Bir neçə gün əvvəl qəsəbədə 24-ü üçotaqlı, 24-ü isə ikiotaqlı olan, zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət 48 mənzilli binanın istifadəyə verilməsi qəsəbə sakinlərində böyük sevinc hissləri yaradıb. Məlumat üçün bildirək ki, fərdi istilik sistemi ilə qızdırılacaq mənzillərdə müasir kommunal-məişət şəraiti təmin olunub, mərkəzləşdirilmiş antena sistemi və 2 lift quraşdırılıb, binanın həyətində abadlıq işləri aparılıb, istirahət guşəsi yaradılıb, müasir işıqlandırma və suvarma sistemi qurulub. Binanın iyulun 2-də – görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmizə rəhbərliyinin 50 illiyi ərəfəsində istifadəyə verilməsi ulu öndərə böyük ehtiramın daha bir nümunəsi olub. Həmin gün yeni binada 1 şəhid ailəsinə, sağlamlıq imkanları məhdud 2 Azərbaycan Vətən Müharibəsi iştirakçısına və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə yeni mənzillər təqdim edilib.

Yeni binanın zirzəmisində Heydərabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Heydərabad bələdiyyəsi və Sədərək Rayon Gigiyena və Epidemiologiya Mərkəzi üçün iş otaqları ayrılıb, xidmət mərkəzi istifadəyə verilib. Mərkəzin direktor səlahiyyətlərini icra edən Yusif Zeynalov onlara belə iş şəraitinin yaradılmasından razılıqla danışdı, kollektiv adından minnətdarlığını bildirdi.

Sərhəd bölgəsində daha bir yeni quruculuq ünvanı isə rayon mərkəzində Su Monitorinq Laboratoriyasıdır. Laboratoriyanın müdiri Yalçın Əliyev deyir ki, binada analiz və nümunələrin hazırlanması otaqları istifadəyə verilib. Yeraltı və yerüstü suların müxtəlif təyinatlar üzrə analizlərinin aparılması üçün laboratoriya müasir avadanlıqlarla təchiz edilib. Laboratoriyada suyun radioaktiv çirklənməsini, suda ağır metalları, suyun codluğunu, duzluluğunu, elektrik keçiriciliyini, tərkibində turşu və qələvilərin miqdarını, suda həll olmuş oksigeni təyin etmək mümkündür. Həmçinin laboratoriyada atom elektrik stansiyalarında istifadə olunan radioaktiv elementlərin nüvə parçalanmasından əmələ gələn tritium izotopunu təyin edən "TRİ CARB" cihazı quraşdırılıb. Yaradılan şərait muxtar respublikada su mühitinin yüksək keyfiyyətlə və dəqiqliklə öyrənilməsinə imkan verib.

Laboratoriya kollektivinə qayğının ifadəsidir ki, yeni qurum avtomobillə təchiz olunub.

Sərhəd bölgəsindəki bu yeniliklər düşmənə gözdağı olan rayonda quruculuğun yeni səhifələridir. Təbii ki, bütün bunlar Sədərəyin düşmənin bir addımlığında qorxmadan, çəkinmədən dayanan, təsərrüfat işlərində çalışan sakinləri tərəfindən yüksək qiymətləndirilir. Elə həmsöhbət olduğumuz insanlar da rayonda həyata keçirilən belə quruculuq tədbirləri haqqında razılıqla danışdılar. Rayon İcra Hakimiyyətinin əməkdaşı Samil Kazımov dedi ki, bölgə sakinləri qəsəbədə həyata keçirilən layihələri insan amilinə göstərilən böyük qayğı kimi dəyərləndirirlər. Ötən dövrdə rayon mərkəzi Heydərabadda böyük dövlət qayğısının ifadəsi kimi həyata keçirilən kompleks quruculuq tədbirləri bu sərhəd yaşayış məntəqəsinə müasirlik gətirib. Bu gün rayonda elə bir idarə, müəssisə və təşkilat yoxdur ki, fəaliyyətini müasir tələblərə cavab verən yeni binada davam etdirməsin.

Rayon ziyalısı Kəmalə İbrahimova da yaşadığı yurd yerinə göstərilən qayğıdan həvəslə danışır. Deyir ki, Heydərabada göstərilən hərtərəfli dövlət qayğısı təkcə naxçıvanlıları deyil, hər bir azərbaycanlını ürəkdən sevindirir. Çünki Vətən sərhəddən başlayır. Heydərabad da bu sərhədin bir hissəsidir. Bu gün bu keçilməz sərhəd bölgəmizin qovuşduğu işıqlı həyat tərzi ulu öndər Heydər Əliyev ideyalarının reallaşdırılması hesabına mümkün olub... Bu işığın ziyası sərhəd bölgəsinin mərkəzi Heydərabad qəsəbəsində də heç vaxt sönməyəcək, daim yanacaq, qəsəbə sakinlərinin yollarını işıqlandıracaq. Buna əminlik yaradan son illərdə qəsəbədə həyata keçirilən genişhəcmli quruculuq tədbirləridir.



Müəllim Həsən Rzayev deyir ki, görülən bütün işlər sərhədçi ömrü yaşayan sakinlərə böyük dövlət qayğısının ifadəsidir. Belə qayğının davamlı xarakter alması Heydərabada qaynar həyat bəxş edib. Bu gün hər bir qəsəbə sakini heç nədən çəkinmədən qurur, yaradır. Çünki arxasında güclü dövlətin və ordunun dayandığını bilir. Bunları mənfur qonşular da görür. Naxçıvanın belə inkişafı isə düşmənə ən böyük zərbə və cavabdır.

Heydərabad qəsəbəsindəki yeni quruculuq ünvanları ilə bağlı yazı hazırlayarkən hələ 2003-cü ildə qəzetimizin yaradıcı heyətinin sərhəd bölgəsinin sakinləri ilə görüşünü xatırladım. Heydərabad qəsəbəsində – rayon İcra Hakimiyyətinin binasında təşkil edilən tədbirdə bu sərhəd bölgəsinə göstərilən dövlət qayğısından geniş söhbət açıldı. Bu qayğıdan rayon mərkəzinə də xeyli pay düşdüyü vurğulandı. O görüşdən illər keçir. Bu dövrdə rayonun siması tamamilə yenilənib. Elə il olmayıb ki, burada quruculuq tədbirləri görülməsin. Bu tədbirlər davam etdikcə sədərəklilərin doğma torpağa sevgisi daha da artır, qurub-yaratmaq əzmi günbəgün yüksəlir.

**Muxtar MƏMMƏDOV**

---

*Şərur Rayon İcra Hakimiyyətində keçirilən müşavirədə 2019-cu ilin birinci yarısında rayonun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr müzakirə edilib.*

## Yarım ilin yekunları müzakirə edilib

Tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov bildirib ki, 2019-cu ildə də rayonda geniş quruculuq və abadlıq işləri davam etdirilib, istehsal və xidmət sahələrinin, təhsil, mədəniyyət, səhiyyə ocaqlarının tikintisi və infrastrukturların yenilənməsi diqqət mərkəzində olub. Şərur şəhərində Uşaq Xəstəxanasının, Kərimbəyli kəndində tam orta məktəb binasının, kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının tikintisi və ya yenidən qurulması, Mərkəzi Xəstəxananın əsaslı təmiri başa çatdırılaraq istifadəyə verilib. Hazırda Şərur şəhərində Mədəniyyət Sarayının, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti Şərur rayon filialı üçün inzibati binanın, Mərasim evinin, altımərtəbəli 40 mənzilli yaşayış binasının, Qarxun kəndi ərazisində Daxili Qoşunlar üçün nəzərdə tutulmuş infrastrukturların tikintisi, rayon mərkəzində Təqaüdçülər Klubunun, Mərkəzi Univermağın əsaslı təmiri və yenidən qurulması davam etdirilir. Naxçıvan-Sədərək avtomagistralından Şərur şəhərinə qədər olan, eləcə də şəhərdəki Heydər Əliyev prospektini və 6 küçəni əhatə edən 11 kilometrlik avtomobil yolu da yenidən qurulur.

Bildirilib ki, quruculuq tədbirləri rayonun digər ünvanlarında da aparılır.

Vurğulanıb ki, ümumilikdə, 2019-cu ilin ötən dövrü ərzində iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 26 milyon 341,7 manat və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çox investisiya yönəldilib. Tikinti quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 4,3 faiz artaraq 25 milyon 633 min manat təşkil edib.

Qeyd olunub ki, ilin ilk altı ayı ərzində 43 milyon 915 min manatlıq, yaxud 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çox sənaye məhsulu istehsal edilib.

2019-cu ilin məhsulu üçün ötən ilin payızında və bu ilin yazında 17 min 115 hektar sahədə əkin keçirilib ki, bunun da 4 min 127 hektarını taxıl sahələri təşkil edir. İlin əvvəlindən indiyədək kənd təsərrüfatı məhsullarının istehsalı 2,8 faiz artaraq 16 milyon manata çatıb. Bu prosesdə ailə təsərrüfatlarının rolu böyük olub. Hazırda rayonda 100-dək belə təsərrüfat vardır. Onların fəaliyyətinə hərtərəfli şərait yaradılıb. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən hüquqi və fiziki şəxslərə 1 milyon 419 min 100 manat dəyərində 71 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqlar lizinq yolu ilə güzəştli şərtlərlə satılıb.

Rayonda təhsil, mədəniyyət, səhiyyə, rabitə və digər sahələrdə qazanılan uğurlardan, mövcud nöqsanların aradan qaldırılmasının vacibliyindən danışan Kamal Cəfərov ilin ikinci yarısında qarşıda duran vəzifələrdən də bəhs edib.

Məruzə ətrafında müzakirələr olub.

* * *

***Sədərək Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov açaraq məruzə ilə çıxış edib.***

Qeyd olunub ki, muxtar respublikamızda geniş vüsət alan tikinti-quruculuq işləri Sədərək rayonunu da əhatə edib. Belə ki, Heydərabad qəsəbəsində 7 mərtəbəli, 48 mənzilli yaşayış binası tikilib istifadəyə verilib. Ətraf mühitin mühafizəsi istiqamətində görülən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Su Monitorinq Laboratoriyası fəaliyyətə başlayıb.

Vurğulanıb ki, rayonda payız və yaz aylarında 2472 hektar sahədə taxıl əkini keçirilib. Artıq taxıl biçini yekunlaşmaq üzrədir. Bəhs edilən dövrdə rayonda 365 hektar sahədə tərəvəz, 182 hektarda bostan, 25 hektarda dən qarğıdalı, 25 hektarda günəbaxan, 96 hektarda kartof, 225 hektarda arpa, 38 hektarda paxlalı əkin və 131 hektar sahədə yonca əkilib. 2019-cu ilin yaz əkinləri üçün 580 torpaq mülkiyyətçisinə 505 min 186 kiloqram güzəştli şərtlərlə gübrə verilib.

İcra başçısı bildirib ki, rayon Suvarma Sistemləri İdarəsi tərəfindən bu ilin ilk 6 ayı ərzində 3744 manat dəyərində əsaslı təmir işləri aparılıb. Bu ilin birinci yarısında rayonda yaşıllaşdırma işlərinə də diqqət artırılıb, yolların bərpası və tikintisi istiqamətində də müəyyən işlər görülüb, poçt xidmətlərinin keyfiyyəti yaxşılaşdırılıb. Hesabat dövründə rayon məşğulluq mərkəzində 63 işaxtaran qeydiyyata alınıb və həmin vətəndaşlardan 57-si daimi işlə təmin edilib.

Diqqətə çatdırılıb ki, ilin ikinci yarım ilində rayonun sosial-iqtisadi inkişafı üçün yaradılmış imkanlardan maksimum istifadə edilərək daha yüksək nəticələr əldə olunacaq, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi təmin ediləcək.

Məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# “Heydər Əliyev siyasi məktəbini öyrənirik” Gənc Liderlər Proqramının üzvləri: “Ulu öndərin vətənində olmaq qürurvericidir”



“Heydər Əliyev siyasi məktəbini öyrənirik” Gənc Liderlər Proqramının üzvləri iyulun 10-da Naxçıvan Muxtar Respublikasına səfərdə olublar. Qonaqlar əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub, ulu öndərin xatirəsini dərin ehtiramla yad ediblər. Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub. Proqramın üzvləri qədim diyarın bir sıra tarixi-mədəni abidələrinə, mədəniyyət, təhsil və səhiyyə ocaqlarına ekskursiya ediblər. Duzdağ Fizioterapiya Mərkəzi də gənclərdə maraqlı təəssürat yaradıb. Sonra onlar Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərində, Naxçıvan Müəllimlər İnstitutunda yaradılan müasir tədris şəraiti, ali təhsil müəssisələrinin fəaliyyəti barədə geniş məlumat əldə ediblər.

Qonaqlar Naxçıvan şəhərində “Saat Meydanı” turistik istirahət mərkəzində də olublar. Naxçıvan Biznes Mərkəzində nümayiş edilən məhsullar onlarda böyük təəssürat yaradıb. Gənc liderlər “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini və “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksini də ziyarət edib, Döyüş Şöhrəti Muzeyində sərgilənən hərbi texnikalara baxıb, “Görüş yeri” kafesində çay süfrəsi arxasında mədəni istirahət ediblər.

Proqramın üzvləri “Şərq qapısı” qəzetinə müsahibələrində layihənin məqsədi barədə danışıb, Naxçıvanla bağlı təəssüratlarını bölüşüblər.



***Nuranə Məmmədova – Yeni Azərbaycan Partiyası Şamaxı Rayon Təşkilatı Gənclər Birliyinin sədri:*** – Bildiyimiz kimi, bu il ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyinin 50 ili tamam olur və bu əlamətdar hadisə ilə bağlı keçirilən layihədə iştirak etdiyim üçün özümü çox xoşbəxt sayıram. Bu layihə vasitəsilə xalqımızın dahi rəhbərinin keçdiyi böyük və şərəfli siyasi yola, görkəmli dövlət xadiminin xalqı, milləti üçün gördüyü misilsiz işlərə daha geniş prizmadan baxmağa imkanımız yaranıb, bundan maksimum faydalanmağa çalışırıq. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovla görüş zamanı onun ümummilli liderin siyasi fəaliyyəti ilə bağlı dərinməzmunlu çıxışından ulu öndərin Azərbaycan xalqı qarşısındakı, müstəqil dövlətçiliyimizin qorunub saxlanılmasındakı misilsiz xidmətləri ilə bağlı dəyərli tarixi-siyasi faktlar öyrəndik. Bu, hər bir müasir Azərbaycan gənci üçün olduqca əhəmiyyətli məlumatlardır. Muxtar respublika rəhbəri ilə səmimi görüş zamanı biz gənclərə dahi rəhbərin siyasi yoluna sədaqət ruhunda verdiyi tövsiyələr tutduğum yolda çox böyük stimul olacaq. Təbii ki, layihə çərçivəsində Naxçıvana gəlişimiz daha böyük anlam kəsb edir. Ən əsası ona görə ki, ulu öndər məhz bu torpaqda dünyaya göz açıb, gənclik illərini burada keçirib, siyasi fəaliyyətinin Naxçıvan dövrü müstəqillik tariximizdə həlledici rol oynayıb. Tarixi vərəqlədikcə aydın olur ki, uzaqgörən siyasətçinin ürəyi hər zaman Naxçıvanla döyünüb. Burada olduğumuz müddətdə gəzdiyimiz yerlərdə qarşılaşdığımız mənzərələr belə deməyə əsas verir ki, ümummilli liderin Naxçıvanla bağlı görmək istədiyi işlər bu gün reallığa çevrilib. Şəhər başdan-başa abadlığa, gözəlliyə qərq olub, müasir binalarla qədim abidələrin yan-yana dayanması isə bu diyara bir başqa ecazkarlıq gətirir. Səfərimiz zamanı görkəmli dövlət xadiminin adını daşıdığı muzeylə də yaxından tanış olduq, burada nümayiş etdirilən eksponatlara baxdıqca bu dahi şəxsiyyətin keçdiyi möhtəşəm ömür yolu gözlərim önündə canlandı.

Onu da deyim ki, mən ixtisasca bioloq olduğum üçün Duzdağ Fizioterapiya Mərkəzinin özünəməxsus quruluşu, mağaradakı duz layları, yaradılan müalicə şəraiti diqqətimi çəkdi. Öyrəndim ki, burada dünyanın bir çox ölkələrinin ağciyər xəstəliklərindən əziyyət çəkən insanları müalicə alaraq şəfa tapırlar. Təbii ki, bu səhiyyə ocağı Naxçıvanda turizmin inkişafı baxımından olduqca önəmli rola malikdir. Səfərimiz qısa olduğu üçün gələcəkdə Naxçıvana gəlib daha çox yeri gəzmək niyyətindəyəm və inanıram ki, bu xoşbəxtlik mənə nəsib olacaq.



***Dağlar Babayev – Mingəçevir Şəhər Gənclər Evinin nümayəndəsi:*** – Layihənin başlanması xəbərini eşidən kimi mən də dərhal bu layihəyə üzv olmağa cəhd göstərdim və sevinirəm ki, 400 nəfər arasından seçilmişəm. Layihə çərçivəsində ulu öndərin Vətənində olmaq mənim üçün çox qürurverici haldır.

Səfər zamanı görkəmli dövlət xadiminin siyasi məktəbinin layiqli davamçısı olan Ali Məclisin Sədri cənab Vasif Talıbovla görüşümüz, onunla səmimi söhbət yaddaşımdan heç zaman silinməyəcək.

Biz Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin yeni tədris kompleksini gəzdikcə məndə burada yüksəkixtisaslı tibbi kadrların yetişəcəyinə əminlik yarandı. Muxtar respublikanın tarixi-mədəni abidələri də olduqca möhtəşəmdir. Möminə xatın türbəsinin görünüşü, üzərindəki həndəsi ornamentlər, burada nümayiş olunan eksponatlar qədim diyarın tarixi keçmişini gözlərim önünə gətirdi. Abidələrin ətrafında yaşıllıqların, istirahət guşələrinin salınması da olduqca heyranedici görünüş yaradır. Küçə və xiyabanlardakı səliqə-sahman, təmizlik də şəhəri gözəlləşdirən əsas amildir. Naxçıvandakı əmin-amanlıq, sabitlik insana müsbət aura bəxş edir.



***İsa Bayramov – Yeni Azərbaycan Partiyası Binəqədi Rayon Təşkilatının nümayəndəsi:*** – Layihə çərçivəsində Naxçıvana gəldiyimə, bu qədim diyarla yaxından tanış olduğuma görə sevincliyəm. Dahi rəhbərin dünyaya göz açdığı bir torpağa ayaq basmaq, oradakı tarixi yerləri gəzmək, həqiqətən, çox qürurvericidir. Səfər müddətində biz ulu öndərin dəyərli irsi, xüsusilə görkəmli dövlət xadiminin Naxçıvanla bağlı gördüyü işlər barədə ətraflı məlumat əldə etdik. Bu mənada, Ali Məclis Sədri ilə görüşümüz çox faydalı oldu.

Səfər zamanı tarixi abidələrə də ekskursiya etdik, açıq səma altında nümayiş olunan daş abidələr mənə bu yerin keçmişi, insanların məşğuliyyəti barədə ətraflı bilgi verdi.

Naxçıvan Biznes Mərkəzində nümayiş etdirilən istehsal məhsulları da olduqca diqqətçəkici idi. Blokada şəraitində yaşayan muxtar respublikanın belə güclü iqtisadi potensiala malik olması məni heyrətləndirdi. Əshabi-Kəhf ziyarətgahına getdiyimdə burada insanların səliqə-sahmana fikir verməsi, bu müqəddəs məkanı təmiz saxlamaları da diqqətimi çəkdi. Bir sözlə, belə ecazkar diyarı görmək mənim üçün çox xoş oldu, əməyi keçənlərə minnətdarlığımı bildirirəm.



***Zaur Babayev – ASAN Könüllülər Təşkilatının ictimaiyyətlə əlaqələr departamentinin əməkdaşı:*** – Naxçıvan həm tarixi, həm də təbiətilə Azərbaycanın dilbər guşələrindən biridir. Naxçıvan 5 minillik şəhərsalma tarixinə malikdir. Muxtar respublikadakı tarixi abidələr bu diyarın nə qədər zəngin olduğunun göstəricisidir.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin 50 illiyinə həsr olunan bu proqram çərçivəsində Naxçıvana səfərimiz fərqli oldu. Ulu öndərin həyatını, siyasi fəaliyyətini daha dərindən öyrəndik. Bu, biz gənclər üçün böyük bir şans və təcrübədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüşümüz zamanı muxtar respublika rəhbərinin dəyərli fikirlərini öyrəndik və bu fikirlər bizim gələcək inkişafımız üçün düzgün yol göstərəcək.



***Sabir Rüstəmov – “Bakı Gənclər Klubu” İctimai Birliyinin beynəlxalq departamentinin rəhbəri:*** – Naxçıvanda ilk dəfədir, oluram. Bura qədim, zəngin tarixə malik bir diyardır. Buradakı qonaqpərvərlik məni valeh etdi. Bu gözəl adət Naxçıvanda həm yerli, həm də beynəlxalq forumların keçirilməsinə imkan verib. Azərbaycanın tarixini təbliğ etmək üçün buradan gözəl yer yoxdur.

Muxtar respublikada olan tarixi yerlər əcnəbilərin də diqqətini çəkir və onlar bu diyarın nə qədər zəngin tarixi məkan olduğunu görürlər. Yeri gəlmişkən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovla görüş zamanı da Naxçıvanı beynəlxalq səviyyədə gənclərin əməkdaşlıq mərkəzinə çevirməklə bağlı dəyərli fikirlər səsləndirildi. Bunun üçün muxtar respublikada hər cür şəraitin yaradıldığını və kifayət qədər təcrübənin olduğunu öyrəndik. Layihəyə gəlincə, əsas məqsəd 50 gənci bir araya toplayıb Heydər Əliyev irsini öyrənmək, həmçinin gələcəkdə Azərbaycanı dünya arenasında düzgün şəkildə təmsil etməkdir. Burada gənclər liderlik bacarıqlarının necə olduğunu, eyni zamanda tariximizi də dərindən öyrənirlər. Arzu edərdim ki, hər bir gənc gələcəkdə bu cür layihələrin iştirakçısı olsun. Ali Məclisin Sədri görüş zamanı bizi maraqlandıran sualları cavablandırdı. Bu cavablardan nəticə çıxarmalı, bilmədiyimiz tarixi hadisələri, siyasi prosesləri dərindən öyrənməliyik. Görüş zamanı aldığımız dəyərli tövsiyələr biz gənclər üçün unudulmaz olacaq.



***İlahə Həsənova – Azərbaycan Memarlıq və İnşaat Universitetinin Tələbə-Gənclər Təşkilatının sədri:*** – Bu layihə barədə fikirlərim çox yüksəkdir. İlk dəfədir ki, bu qədər geniş və səmimi olan liderlik akademiyasında iştirak edirəm. Buna görə bütün təşkilatçılara, xüsusilə də muxtar respublika rəhbərinə öz minnətdarlığımı bildirirəm. Bizi çox gözəl qarşıladılar, muxtar respublika rəhbəri ilə səmimi görüş bizə çox şeylər öyrətdi. Eyni zamanda Naxçıvanın tarixi və memarlıq abidələri ilə yaxından tanış olduq. Düşünürəm ki, Naxçıvan nəinki Azərbaycanda, hətta dünyada tarixi abidələrin qorunub saxlanılmasına görə tanınan əsas şəhərlərdən biridir.

**✍ Nail ƏSGƏROV**
**✍ Ceyhun MƏMMƏDOV**

## “Naxçıvan Muxtar Respublikasının coğrafiyası” ikicildliyinin təqdimatı olub







İyulun 11-də Beynəlxalq Mətbuat Mərkəzində AMEA-nın Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun təşkilatçılığı ilə “Naxçıvan Muxtar Respublikasının coğrafiyası” ikicildliyinin təqdimat mərasimi keçirilib.

Tanınmış alim və mütəxəssislərin iştirak etdikləri mərasimdə Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov rəhbərlik etdiyi elm müəssisəsində aparılan tədqiqatlar, əldə olunan nəticələr barədə məlumat verib.

Naxçıvan Muxtar Respublikasının coğrafiyası haqqında danışan alim təqdim olunan nəşrdə zəngin təbii şəraitə və ehtiyatlara malik olan muxtar respublika ərazisinin fiziki coğrafiyasının müxtəlif sahələrini əhatə edən ən son elmi tədqiqatlarının nəticələrinə dair məlumatların verildiyini deyib.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli “Naxçıvan Muxtar Respublikasının coğrafiyası” ikicildliyi ilə bağlı fikirlərini bildirib, onun əhəmiyyətini vurğulayıb.

Milli Məclisin deputatı Fazil Mustafa və digər çıxış edənlər də kitabın tariximiz, elmimiz üçün çox dəyərli mənbə olduğunu bildiriblər.

**AZƏRTAC**

## Respublika fənn olimpiadasının qalibləri mükafatlandırılıb

***İyulun 11-də respublika fənn olimpiadalarının muxtar respublikadan olan 25 qalibinə medal və sertifikatlar təqdim edilib.***

Tədbirdə Təhsil naziri Rəhman Məmmədov bildirib ki, təhsilin keyfiyyətinin yüksəldilməsinin diqqətdə saxlanıldığı muxtar respublikada istedadlı şagirdlərlə aparılan iş sahəsində mühüm tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu il iyunun 24-də imzaladığı Sərəncamla 3 şagirdin adının Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na yazılması və onların xüsusi aylıq təqaüdə layiq görülməsi istedadlı uşaqlara dövlət qayğısının bariz göstəricisidir.

Qeyd olunub ki, ötən tədris ilində istedadlı şagirdlərin aşkar olunması, onların potensiallarının inkişaf etdirilməsi məqsədilə müxtəlif bilik yarışları, müsabiqələr, muxtar respublika və respublika səviyyəli olimpiadalar təşkil olunub. Respublika fənn olimpiadası, ümumilikdə, 8 fənn üzrə IX-XI sinif şagirdlərinin iştirakı ilə keçirilib. Olimpiadanın nəticələri uğurlu olub, muxtar respublika məktəbliləri 2-si qızıl, 6-sı gümüş, 17-si isə bürünc olmaqla, 25 medal qazanıblar. Olimpiada qaliblərindən 17-si, yaxud 68 faizi dəqiq fənlər üzrə yer tutub. Olimpiadanın nəticələrinə əsasən Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri 4 medal qazanmaqla muxtar respublika birincisi, Heydər Əliyev adına Hərbi Liseyin kursantları isə 3 medal qazanmaqla muxtar respublika ikincisi olublar.



Olimpiada qalibləri ilə bağlı yeni qaydaların qəbul olunduğunu diqqətə çatdıran nazir bildirib ki, bu qaydaya əsasən cari tədris ilindən etibarən beynəlxalq olimpiada qalibləri istənilən ixtisas üzrə, respublika fənn olimpiadaları qalibləri isə qalib olduqları fənlərə uyğun ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olmaq hüququna malikdirlər.

Tədbirdə Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Elşən Qəbulov çıxış edib.

Sonra Ali Məclis Sədrinin müvafiq sərəncamı ilə adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na yazılmış, xüsusi aylıq təqaüdə layiq görülmüş, respublika fənn olimpiadasında tarix fənni üzrə gümüş medalın sahibi, Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Siyavuş Bağırov olimpiada qalibləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Tədbirin sonunda olimpiada qaliblərinə medal və sertifikatlar təqdim edilib, xatirə şəkli çəkdirilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## “Araz-Naxçıvan”a bürünc medallar təqdim olunub



*Naxçıvan Muxtar Respublika Stadionunun inzibati binasında cari mövsümdə Azərbaycan Region Liqasında bürünc medal qazanan “Araz-Naxçıvan” futbol komandasını mükafatlandırma mərasimi keçirilib.*

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Naxçıvan Muxtar Respublikası Futbol Federasiyası ilə Gənclər və İdman Nazirliyinin birgə təşkil etdiyi tədbirdə komandanın idarə, məşqçi və futbolçu heyəti iştirak edib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirinin müavini Məcid Seyidov bildirib ki, bu gün muxtar respublikada idman və idmançılara dövlət qayğısı ən yüksək səviyyədədir. Muxtar respublikanın bütün rayon və şəhərlərini əhatə edən müasir idman infrastrukturunun yaradılması yenilətmə və gənclərin idmanın müxtəlif növlərinə marağını gündən-günə artırmaqdadır. Məlum olduğu kimi, Futbol Federasiyasının strukturunda dəyişiklik edilib, Ali Məclisin Sədri tərəfindən muxtar respublikada futbolun kütləvi hal alması üçün bir sıra tapşırıqlar verilib. Həmin tapşırıqlara əsasən federasiya mütəmadi olaraq məşqçilərin yığıncaq və seminarlarını təşkil edir. Qarşıdakı mövsümdən etibarən isə uşaq futbol liqalarının yarışlarına start veriləcək.

“Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının qarşılıqlı fəaliyyəti nəticəsində muxtar respublikada bir sıra beynəlxalq və ölkə miqyaslı yarışların keçirilməsi nəzərdə tutulub. Eyni zamanda Bakı şəhərində keçirilən Azərbaycan Region Liqasında muxtar respublikanı “Araz-Naxçıvan” komandası təmsil edib və böyük uğura imza ataraq liqanın bürünc medalını qazanıb”, – deyən Məcid Seyidov qeyd edib ki, növbəti mövsümlərdə əsas hədəf qalib olmaqdır.

Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının Məşqçilər Komitəsinin üzvü, veteran futbolçu Yaşar Vahabzadə isə çıxışında vurğulayıb ki, bu gün ölkədə idmanın inkişafına xüsusi diqqət və qayğı göstərilir. Bunun ifadəsidir ki, Azərbaycan dünyada idman ölkəsi kimi ad qazanıb. Təbii ki, bunun səbəbi yaradılan infrastrukturdur. Naxçıvan Mutar Respublikasında da idman sahəsində qazanılan uğurlar qürurvericidir. Bu qədim diyarın tarixi futbol ənənələri var və bu ənənə yaşadılır. Uzun illər naxçıvanlı futbolçular keçmiş SSRİ yığmalarının heyətində mübarizə aparıblar. Həmçinin “Araz-Naxçıvan” komandası müstəqillik illərində ölkə çempionatında çıxış edib, futbol üzrə Birinci Divizionun qalibi olub. Bu, onu göstərir ki, Naxçıvan hər zaman Azərbaycan futbolu üçün istedadlı futbolçular yetişdirib.

Yaşar Vahabzadə gələcəkdə naxçıvanlı futbolçuların müəyyən yaş qruplarında millimizin heyətinə dəvət olunacağına, ölkəmizi beynəlxalq turnirlərdə layiqincə təmsil edəcəklərinə əminliyini bildirib. O, Azərbaycan Region Liqasında da mübarizə aparan “Araz-Naxçıvan” komandasını qazanılan uğur münasibətilə təbrik edib, gələcək oyunlarda uğurlar arzulayıb.

Çıxışlardan sonra Azərbaycan Region Liqasında uğur qazanan komandanın üzvlərinə diplom və medallar təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

*Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.*

## Çağırışçı gənclər hərbi xidmətə yola salınıb

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Naxçıvan Şəhər Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Davud Süleymanov, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərov çıxış edərək hərbi xidmətə yola salınanları təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Valideyn Vüqar Bağırzadə çağırışçı gənclərə xoş arzularını çatdırıb.

Çağırışçılar adından çıxış edən Vüsal Əsgərov Vətənə layiqincə xidmət edəcəklərini bildirib.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsmayıl Güləmmədov çıxışında qeyd edib ki, Azərbaycan Silahlı Qüvvələrində xidmət etmək hər bir çağırışçı üçün ən müqəddəs borcdur. Xalq-ordu birliyi imkan verir ki, bu gün hərbi xidmətə yola düşən gənc çağırışçılar Vətənimizə ləyaqətlə xidmət edərək müstəqilliyimizin qorunmasına və möhkəmlənməsinə öz töhfələrini versinlər.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, mayor Anar Aqilov çıxışında bildirib ki, indi Azərbaycanın güclü ordusu var. Ordumuzun hərtərəfli təminatı imkan verir ki, əsgərlərimiz öz xidməti vəzifələrini layiqincə yerinə yetirsinlər. İdarə rəisi diqqətə çatdırıb ki, bu yaxınlarda Naxçıvan Muxtar Respublikasında Azərbaycan-Türkiyə birgə döyüş atışlı təliminin keçirilməsi də sübut etdi ki, Milli Ordumuz istənilən döyüş tapşırığının yerinə yetirilməsinə hazırdır. İnanırıq ki, bu gün hərbi xidmətə yola saldığımız gənclər məhz belə güclü ordunun qorxmaz, cəsur və layiqli əsgərləri olacaqlar.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Həmin gün Babək rayonunda da gənclər hərbi xidmətə yola salınıblar.

✍ **Səbuhi HƏSƏNOV**

*Yurdumuzun nemətləri*

## Dadı və tamı ilə seçilən Ordubad əriyi

*Naxçıvan torpağı ta qədimdən dadlı-tamlı meyvələri ilə dünyada tanınır. Məhz buna görədir ki, hələ orta əsrlərdə səyyahlar Naxçıvanı “meyvə cənnəti” adlandırıblar. Muxtar respublikamızda meyvəçilik əhalinin əsas məşğuliyyət sahələrindəndir. Ərazinin torpaq-iqlim şəraiti müxtəlif giləmeyvə, meyvə ağaclarının tez böyüməsi, inkişafı, bol və yüksəkkeyfiyyətli məhsul verməsi üçün olduqca əlverişlidir. Sağlam qidalanmada meyvə əsas şərtdir, çünki zəngin vitamini insanlar məhz bu nemətlərdən alır. Muxtar respublikamızın hansı bölgəsinə üz tutsaq, meyvə bağlarına rast gəlirik. Bağlar diyarı kimi tanınan Ordubad rayonu isə öz meyvələri ilə xüsusilə seçilir.*



Bu yerlərin torpağı, havası, suyu lap əzəldən meyvəçiliyin inkişafına əlverişli zəmin yaradıb. Bu aqrar sahə min illər boyu Ordubad sakinlərinin başlıca məşğuliyyət sahələrindən birinə çevrilib. Bol, keyfiyyətli, həm də rəngarəng çeşidli təzə meyvə, meyvə qurusu və meyvə şirələri istehsalçısı kimi Ordubadın şan-şöhrəti hər yana yayılıb.

Tarixi mənbələrdə qeyd olunur ki, Karteliya və İrəvan quberniyalarında keçirilən meyvəçilik sərgilərində Naxçıvan və Ordubaddan gətirilib nümayiş etdirilən meyvələrin şöhrəti hər yerə yayılıb. Ta qədimdən bu bölgə ərik bağları ilə daha çox məşhur olub. Bağlarda yetişdirilən müxtəlif növ əriklər dünyada mövcud olan ərik növləri içərisində birinci yerdə dayanıb.

Ordubadın xüsusi ləzzəti, şirinliyi, rəngi, qırmızı yanaqları və ətri ilə fərqlənən əriyi haqqında daha ətraflı məlumat almaq üçün bağban Əbdül Haşımovla həmsöhbət olduq. O qeyd etdi ki, güclü təsərrüfatçılıq ənənələri, qabaqcıl meyvəçilik təcrübəsi olan Ordubad rayonunda tarixən yetişdirilən, ölkəmizin müxtəlif bölgələrinə yayılan ərik sortlarının bərpası, yaşadılması bu gün əsas məqsədlərdən biridir. Ordubadın torpağı əzəldən münbit olduğundan meyvələri də dadlı-ləzzətli olur. Vaxtilə Ordubadda 40 növdə ərik yetişdirilib. Bu sahədə Dəstə, Vənənd və bir sıra kəndlər xüsusilə seçilib. Bu kəndlərdəki bağlarda öz dadı və ətri ilə seçilən əbutalibi, haqverdi, şalax, göycənabat, ağcanabat, badam-ərik, növrəstə, balyarım, kababı və digər ərik növləri yetişdirilib. Əbutalibi əriyi hələ 1898-ci ildə Kaliforniyada təşkil olunmuş ümumdünya meyvəçilik sərgisində birinci yerə layiq görülüb.

Müsahibim dedi ki, Ordubad zonası çəyirdəkli meyvələr vətənidir. İstər çəyirdəkli meyvə ağaclarının, istərsə də ərik bağlarının salınmasında diqqət ediləsi məqamlar çoxdur. Ərik ağacları, adətən, toxum və calaqla artırılır. Payızda, əsasən də noyabr ayında toxumlar əkilir, ağac bir metr boy atdıqdan sonra ona calaq vurulur. Calaq vasitəsilə bir çox meyvələrin vahid sortlarını qorumaq mümkündür. Toxumla əkilən əriklərin özləri də müxtəlif sortlarda olur. Əriyi, əsasən, ərik, şaftalı, rütubətli və gilli torpaqlarda alça, quru torpaqlarda badam və gavalı ilə calaq edirlər. Calağı, əsasən, avqust ayında vururlar, lakin peşəkar bağbanlar fevral, mart, aprel ayları da vura bilirlər.

Xəstəliklərə qarşı mübarizədə digər ağaclar kimi, ərik ağacında da aqrotexniki tədbirlər düzgün yerinə yetirilməlidir. Ərik ağaclarında dərmanlamanı yazda aparmaq lazımdır. Bu ağacların vaxtsız qurumasının qarşısını almaq üçün düzgün əkin materialı seçilməli, sortların dözümlülüyü nəzərə alınmaqla bütün aqrotexniki becərmə üsullarına (budama, formavermə, mineral və mikrogübrələrlə qidalandırma və qış müalicəsi) vaxtında əməl olunmalı, habelə ağacların vaxtlı-vaxtında suvarılmasına diqqət edilməlidir. Ağacları isti günəş şüalarının yandırıcı təsirindən qorumaq üçün gövdələr əhənglə ağardılmalıdır.

Müsahibim vurğuladı ki, ərik, əsasən, yaz və payız aylarında rütubətli olan yerləri, tez-tez suvarılmağı sevmir. Ərik ağacını 15 gündən bir suvarmaq lazımdır. Düzgün aqrotexniki qulluq göstərilən hər bir ərik ağacından 150-200 kiloqram məhsul götürmək olar.

Ordubadda meyvələri qurudaraq qışa saxlamaq və çay süfrələrində onlardan istifadə etmək ənənəsi yerli məişətdə çox geniş yayılıb.

Müsahibim bildirir ki, əbutalibi, balyarım əriklərinin qurusu (qaysı) daha yaxşı olur. Ürək-damar xəstəlikləri, qanazlığı, mədə-bağırsaq xəstəlikləri zamanı ərik qurusunun müalicəvi əhəmiyyəti çox böyükdür. Ordubadda ərik qurusunun qiyməti, xüsusilə də qış aylarında 8-15 manat arası olur. Buna görə də bu sahə üzrə ixtisaslaşmış ailə təsərrüfatlarının yaradılması iqtisadi gəlirlilik baxımından səmərəli ola bilər.

Naxçıvan, xüsusilə də Ordubad mətbəxinə aid milli yeməklərimizdə də bu meyvə növündən geniş istifadə olunur. Süfrələrin bəzəyi, yeməklərin şahı olan plov üzərinə düzülmüş qaysılar (ərik qurusu) onu daha da gözəlləşdirir, fərqli və özünəməxsus görünüş verir. Ordubadda ərik qurusundan bişirilən qış yeməyi – qaysava da sevilən mətbəx nümunələrimizdəndir. Həmçinin əriyin kompot və şirələrini, mürəbbə və cemini də hazırlayırlar. Ərik iqtisadi gəlir gətirən meyvə olduğu üçün ondan hazırlanan müxtəlif məhsullar məişətdə istifadə edilməklə yanaşı, bazara da çıxarılır və insanlar tərəfindən həvəslə alınır.

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın Ordubad rayonunda da uğurla icra olunması bu il də bol məhsul istehsal edilməsinə, bazarlarımızın çeşidli ərik meyvəsi ilə təmin olunmasına səbəb olub.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Tədbir keçirilib



“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası cari ilin ötən dövrü ərzində də davam etdirilib. Bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri də hərbi xidmətdən yeni tərxis olunan şəxslərin məşğulluqlarının təmin edilməsidir. Hərbi xidmətdən tərxis edilmiş Naxçıvan şəhərindən olan gənclərlə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan şəhər, Babək rayonundan olan gənclərlə Babək rayon, Şərur, Kəngərli və Sədərək rayonlarından olan gənclərlə xidmətin Şərur rayon idarələrində, Ordubad və Culfa gəncləri ilə xidmətin Ordubad, Şahbuz gəncləri ilə xidmətin Şahbuz rayon şöbələrində görüş keçirilib.

Tədbirdə hərbi xidmətdən yeni tərxis olunan gənclərin vakant iş yerlərinə göndərilməsi, müvafiq peşə və ixtisaslara yiyələnməsi üçün peşə hazırlığı kurslarına cəlb olunması, onların əmək bazarına inteqrasiyası və rəqabət qabiliyyətinin artırılması və digər məsələlərlə bağlı məlumatlar verilib.

Gənclərin vakant iş yerlərinə, peşə hazırlığı kurslarına, haqqıödənilən ictimai işlərə göndərilməsi məqsədilə qeydiyyatı aparılıb.

Qeyd edək ki, tədbir Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşkilatçılığı ilə keçirilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## 2019-cu ilin iyul ayında məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının qrafiki

| № | Məşğulluq mərkəzləri | Yarmarkanın keçirildiyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | Sədərək Rayon Mədəniyyət Şöbəsinin binası | 16.07.2019 | 11:00 |
| 2. | Kəngərli rayonu | Kəngərli Rayon Mədəniyyət Şöbəsinin binası | 17.07.2019 | 11:00 |
| 3. | Şahbuz rayonu | Şahbuz Şəhər “Araz” kinoteatrının binası | 18.07.2019 | 11:00 |
| 4. | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 22.07.2019 | 11:00 |
| 5. | Ordubad rayonu | Ordubad Rayon Mədəniyyət Şöbəsinin binası | 23.07.2019 | 11:00 |
| 6. | Babək rayonu | Babək Rayon Mədəniyyət Şöbəsinin binası | 24.07.2019 | 11:00 |
| 7. | Şərur rayonu | Şərur Rayon Olimpiya İdman Kompleksinin inzibati binası | 25.07.2019 | 11:00 |
| 8. | Naxçıvan şəhəri | Naxçıvan Regional Peşə Tədris Mərkəzi | 26.07.2019 | 11:00 |

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-81-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Növbətçi məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 461